# AZƏRBAYCAN RESPUBLİKASI
# QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

## ƏMR

№ 34

Bakı şəhəri "18" aprel 2023-cü il

**Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yanında İctimai şuraya seçkilərin keçirilməsi məqsədilə Seçki komissiyasının yaradılması haqqında**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin icrası ilə əlaqədar hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü, "Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 1.3-cü bəndini və 5.5.5-ci yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuraya seçkinin keçirilməsinin təşkili məqsədi ilə 9 nəfərdən ibarət Seçki komissiyası yaradılsın.

**2.** Seçki komissiyasının tərkibi Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşlarından 4 nəfər, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 5 nəfər olmaqla aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri:**

- Fuad Hüseynov – Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini.

**Komissiyanın üzvləri:**

- Nizami Hüseynov – Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Təşkilat-nəzarət və analitika şöbəsinin müdiri;
- Sənan Hüseynov – Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Regional idarəetmə və status şöbəsinin müdiri;

- Kamran Ağaməliyev – Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Məşğulluq sektorunun müdiri;
- Kamran Qubadzadə – "Gənclər Mərkəzi" İctimai Birliyinin sədri;
- Vüqar Cəfərov – "Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin sədri;
- Samirə Mustafayeva – "Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri;
- Günel Mürsəlli – "Dünyəviliyin və Vətənpərvərliyin Təbliğinə Dəstək" İctimai Birliyinin sədri;
- Nailə İsmayılova – "Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri.

3. Seçki komissiyasına tapşırılsın ki, Komitənin rəsmi internet səhifəsində, Komitənin məlumat lövhəsində və digər müvafiq yerlərdə İctimai şuraya namizədliyin irəli sürülməsi, qeydiyyatının başlanılması və başa çatma vaxtı ilə bağlı qəbul etdiyi qərarlar barədə elan versin və İctimai şuraya seçkilərin təşkili ilə əlaqədar digər zəruri tədbirləri həyata keçirsin.

4. Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Vüqar Məhərrəmova tapşırılsın ki, əmrin surətinin Komitənin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarət Komitə sədrinin müavini Fuad Hüseynova həvalə edilsin.

6. Əmr imzalandığı tarixdən qüvvəyə minmiş hesab edilsin.

**Sədr** **Rövşən Rzayev**